*Araştırma Makalesi/Research Article*

**BENGİ**

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**
*BENGİ World Journal of Yörük-Türkmen Studies*
*https://dergipark.org.tr/tr/pub/bengi*
**ISSN: 2717-6584**

# XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılda Karabağ'da Entodemografik Süreçler

*The Ethno-Demographic Processes in the Second Half of the 18th Century and the 19th Century in Karabakh*

**doi**: 10.58646/bengi. 1425161

**Geliş/Received:** 24 Ocak 2024 **Kabul/Accepted:** 8 Şubat 2024

**Tahir ŞAHBAZOV***

## Özet

Göçler, etnik asimilasyon, Ruslaştırma ve Hristiyanlaştırma siyaseti, Rusya İmparatorluğu'nun sömürgecilik ve askeri-siyasi planlarında her zaman önemli yeri işgal etmiştir. Tarihte Türk-Müslüman halklarına (Kafkasya, Orta Asya, Kazakistan vs.) karşı yürütülen bu siyasetin yeteri kadar açık örnekleri bulunmaktadır. İster XIX. yüzyılın başlarında Qacarlar ve Osmanlı Türkiyesi ile yapılan savaşlar sırasında isterse de Güney Kafkasya'nın işgali (1828 yılı) sonrasında Çar Rusyası'nın Azerbaycan siyasetinin temel yönlerinden birini bu siyaset oluşturmuştur. Bahsi geçen siyaseti hayata geçirmekle Çarizm, esasen bölgenin etnik-siyasi haritasını değiştirmekle imparatorluk dahilinde siyasi, sosyo-ekonomik, stratejik ve idari yönetimle bağlı sorunları çözmeye, burada kendisine yakın olan "Hristiyan ortamı" oluşturarak, Osmanlı ve diğer Müslüman ülkelere karşı askeri meydan olarak kullanmaya, bu diyarı sivil ve siyasi bağlarla ebedi olarak Rusya'ya bağlamaya, tabiri caizse yerli Müslümanları "Rusça konuşmaya, Rusça düşünmeye ve hatta Rusça hissetmeye mecbur bırakmaya", imparatorluğun iç eyaletlerindeki toprak kıtlığını ortadan kaldırmaya, yerel yönetimlere güvenilir Rus memurlarını getirmekle, burada Rusların güçlenmesine "engel olan" Müslümanları yönetim kurumlarından uzaklaştırmaya, Müslüman eyaletlerinde

* **Sorumlu Yazar/Corresponding author**: Prof.Dr., Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü, e-posta: tshahbazov.65@gmail.com, Orcid: 0000-0001-7973-213X.

**Atıf/Citation:** Şahbazov, T. (2024). XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılda Karabağ'da Entodemografik Süreçler. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi. 2024 *(1),* 70-86.

yerli halktan sömürgecilik planlarının uygulanmasına yardımcı olacak elit tabaka oluşturmaya çalışmaktaydı.

Belirlenen görevlerin yerine yetirilmesine daha I. Rusya-İran Savaşı (1804-1813) sırasında başlanmış ve süreç XIX. yüzyılın sonlarına kadar devam etmiştir. Bu süre zarfında geçmiş İrevan, Nahçıvan ve özellikle de Karabağ hanlıklarının arazisi etnodemografik sarsıntılara daha fazla maruz kalmıştır. Döneme ait kaynak ve materyallere dayanılarak yazılan makalede bahsi geçen dönemde Karabağ bölgesinde yaşanan etnodemografik süreçlerin karakterinin tahililine çalışılmıştır.

**Anahtar Kelimeler**: Karabağ, Etnodemografik Süreçler, Etnik Asimilasyon, Güney Kafkasya, Hristiyan Göçleri.

.

**Abstract**

Relocations, ethnic assimilation, Russification and Christianization policies have always occupied an important place in the colonial and military-political plans of the Russian Empire. There are quite clear examples of this policy in relation to Turkic-Muslim peoples (Caucasus, Central Asia, Kazakhstan, etc.) in history. In the course of the wars with Iran and Ottoman Turkey at the beginning of the 19th century, as well as in the years after the occupation of the South Caucasus (1828), this policy constituted one of the main directions of Azerbaijan policy of Tsarist Russia. By implementing this policy, tsarism basically changed the ethno-political map of the region; tried to solve the problems related to political, socio-economic, strategic and administrative management within the empire, formed the “Christian environment” native to it, to create a military arena against Turkey and other Muslim countries, to attach this land forever with property and political ties to Russia, so, to force the local Muslims to “speak Russian, think Russian and even feel Russian”, to eliminate the shortage of land in the internal governorates of the empire, to appoint reliable Russian officials to local government structures by attracting; it was trying to remove the Muslims who “obstructed” the strengthening of the Russians from the governing bodies, and to form a higher strata among the local population in the Muslim provinces that would help them to implement their colonization plans.

The fulfillment of these tasks began during the first Russian-Iranian war (1804-1813) and the process continued until the end of the 19th century. At this time, the territory of the former Iravan, Nakhchivan, and especially the Karabakh khanates was more exposed to ethno-demographic changes. An attempt was made to analyze the nature of the ethno-demographic processes taken place in the Karabakh region in the mentioned period in the article written on the basis of sources and literature materials of the period.

**Keywords**: Karabakh, Ethno-Demographic Processes, Ethnic Assimilation, South Caucasus, Christian Relocations.

## Giriş

Etnik assimiliyasiya, ruslaşdırma və xristianlaşdırma siyasəti Rusiya imperiyasının müstəmləkəçilik və hərbi-siyasi planlarında daima mövcud olmuşdur. Həmin siyasət özlüyündə ya mərhələlərlə kompleks şəkildə, ya da bu və ya digər aspekti ön plana çəkilməklə həyata keçirilmişdir ki, onlardan biri də köçürmələrdir. Tarixdə türk-müsəlman xalqlarına (Qafqaz, Orta Asiya, Qazaxstan və s.) münasibətdə bu siyasətin kifayət qədər bariz nümunləri məlumdur. Təsadüfi deyil ki, istər XIX əsrin əvvəllərində Qacarlar və Osmanlı Türkiyəsi ilə aparılan müharibələrin gedişində, istərsə də Cənubi Qafqazın işğalından sonrakı illərdə çar Rusiyasının Azərbaycan siyasətinin əsas istiqamətlərindən birini məhz xristian köçürmələri təşkil etmişdir. Bu siyasəti həyata keçirməklə çarizm aşağıdakı əsas məqsədlərə nail olmağa çalışmışdır:

- Regionun etnik-siyasi xəritəsini dəyişməklə imperiya daxilində siyasi, sosial-iqtisadi, strateji və inzibati idarəetmə ilə bağlı problemləri həll etmək;

- Regionda ona doğma olan "xristian mühiti"ni formalaşdırmaq və buradan Osmanlı və digər müsəlman ölkələrinə qarşı hərbi meydan kimi istifadə etmək (Abdullayev, 2005: 211);

- Bu diyarı mülkü və siyasi tellərlə əbədi olaraq Rusiyaya bağlamaq, belə demək mümkünsə, yerli müsəlmanları "rusca danışmağa, rusca düşünməyə və həta rusca hiss etməyə məcbur etmək"(Kolonialnaya politika rossiyskogo çarizma v. Azerbaydjane v. 20-60 gg., 1936: 280);

- Rus burjuaziyası və mülkədarlarının mənafeyi naminə imperiyanın daxili quberniyalarındakı torpaq qıtlığını aradan qaldırmaq, yerli idarəetmə təsisatlarına etibarlı rus çinovniklərini cəlb etmək, burada rusların möhkəmlənməsinə açıq şəkildə olmasa da, dolayısı ilə mane olan müsəlmanları idarəetmə orqanlarından kənarlaşdırmaq;

- Nəhayət, müsəlman əyalətlərində yerli əhalinin içərisindən onların müstəmləkəçilik planlarının icrasına kömək edəcək ali silk formlaşdırmaq. Çünki "köhnə" bəylər və ağalar Rusiyanın nəzərində bölgədə "sakitliyi və təhlükəsizliyi pozan" ən etibarsız elementlərə çevrilmişdilər.

Bu vəzifələrin yerinə yetirilməsinə hələ birinci Rusiya-Qacarlar müharibəsinin gedişində (1804-1813) başlanılmış və proses XIX əsrin sonlarına qədər davam etmişdir. Bu zaman keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisi etnodemoqrafik sarsıntılara daha çox məruz qalmışdır. Belə ki, Qarcarlardan və Osmanlıdan göndərilən ermənilərin əsas hissəsi məhz sözügedən xanlıqların ərazisində məskunlaşdırılmışdı.

Lakin bu məsələlərin təhlilinə keçməzdən əvvəl, bir neçə vacib nüansa diqqət yetirməyi faydalı hesab edirik. Onlardan birincisi "Qarabağ" adının traktovkası – izahı ilə bağlıdır. Araşdırmaçıların qənaətinə görə, *"bu ad təxminən VII əsrdən işlənilməyə başlanılmışdır. O, əvvəllər konkret məkanı bildirmiş, sonra isə geniş coğrafi əraziyə aid edilmişdir Müqayisə məqsədilə qeyd edək ki, bu hal bütün Azərbaycan üçün xarakterikdir. Naxçıvan şəhəri - Naxçıvan bölgəsi və i.a. kimi, Qarabağın da ilk zamanlar şəhər adı olması fikri vardır"*(Qarabağ: Suallar və Faktlar, 2005: 3).

Bundan əlavə, tədqiqatçılar hesab edirlər ki, tarixən "Qarabağ" toponimi aranlı-dağlı Qarabağın bütün ərazisini ehtiva edən ümumi bir ad olmuşdur. "Dağlıq Qarabağ" anlayışı isə çox sonraların "məhsuludur" və separatçılıq niyyəti ilə Qarabağın bir hissəsinə verilmiş addır (Mahmudov-Şükürov, 2005: 1).

İkinci vacib məqam Qarabağın tarixi sərhədləri ilə bağlı məsələdir. Bu barədə mənbələrdə və ayrı-ayrı müəlliflər arasında fərqli fikirlər mövcuddur. Məsələn, 1725-1727-ci illərə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndən oxuyuruq:

> *"İstər XVI əsrin sonunda, istərsə də XVIII əsrin əvvəllərində Gəncə-Qarabağ əyalətinin sərhədləri şimalda Kür çayı boyunca davam etmiş, Kürün Araz çayı ilə birləşdiyi yerdən Araz çayı boyunca qərbə doğru, Bərgüşad livasına (sancaq, qəza) və buradan da şimal istiqamətində Göyçə gölünün şərq hissəsindən keçərək yenə də şimala doğru, Tiflis əyalətinə daxil olmuş, Borçalının cənub hissəsi və Taşır nahiyəsi ilə həmsərhəd olan Lori qəzasına qədər uzanmışdır. Demək, nəinki strateji mövqeyi, eyni zamanda ərazisi baxımından da Gəncə-Qarabağ əyaləti osmanlıların Qafqazda ələ keçirdikləri torpaqlarda yaratdıqları ən böyük inzibati-ərazi vahidi olmuşdur"*(Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, 200: 7).

XVIII. əsrin Azərbaycan tarixçisi Mirzə Camal Cavanşir Qarabaği özünün "Qarabağ tarixi" əsərində Qarabağın sərhədlərini belə təsvir edir:

> *"...Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhəddi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər - Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə "Krasnı most", yəni "Qızıl körpü" adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın*

*Yelizavetpolla sərhədi Kür çayına qədər - Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır. Nəhayət, keçmiş əsrlərdə (burada) iğtişaşlar və dəyişikliklər üz vermiş, bəzən İran, Rum (Türkiyə) və Türküstan padşahları bu vilayətləri fəth edib ayrı-ayrı sərhədlər qoymuş, qalalar tikmiş və onlara başqa adlar vermişlər. Qarabağ vilayəti Aran məmləkətinin bir hissəsidir..."*( Qarabaği, *1959:6)***.**

1805-ci il Kürkçay müqaviləsi imzalanərkən isə Qarabağ xanlığı "*şimalda - Kür boyu boyunca Şəki və qismən Şamaxı xanlıqları ilə; şərqdə - Şamaxı xanlığı ilə; cənubda - Araz boyunca qismən Qaradağ və qismən də Naxçıvan xanlıqları ilə; qərbdə - qismən Yelizavetpol (Gəncə) əyalətləri və Göyçə gölünə qədər qismən də İrəvan əyaləti ilə həmsərhəd olmuşdur"*(Abasov, 2007: 121).

Üçüncü vacib məqam isə çar Rusiyası tərəfindən ilhaq edilərkən Qarabağın siyasi statusu, konkret inzibati-ərazi vahidi olaraq milli-dini mənsubluğu ilə bağlıdır. Məlum olduğu kimi, 1801-ci ildə imzalanmış Georgevski traktatına görə Kartli-Kaxetiya çarlığı ilə bərabər, Borçalı, Qazax və Şəmşəddil kimi Azərbaycan sultanlıqları da Rusiyanın tərkibinə qatılmışdır. Bu hadisədən bir neçə il sonra - 1805-ci il mayın 4-də (26) isə Gəncə şəhərindən 20 verst aralıda, Kürəkçay sahilində rus generalı Sisyanovla İbrahimxəlil xan arasında imzalanan və tarixdə "Kürəkçay müqaviləsi" adlanan müqavilə ilə *"Qarabağ xanlığı müsəlman – Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu. Tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi eyni zamanda Qarabağın, o cümlədən bu diyarın dağlıq hissəsinin Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir"*(Mahmudov-Şükürov, 2005: 31).

Lakin 1822-ci ildə müqavilənin şərtlərinin ruhuna zidd olaraq digər Azərbaycan xanlıqları ilə bərabər, Qarabağ xanlığı da ləğv edildi və onun əvəzində Qarabağ əyaləti yaradıldı. 1840-cı ildə burada təşkil edilən Şuşa qəzası Kaspi (Xəzər) vilayətinin tərkibinə daxil edildi (Dekonskiy, 1886: 122). 1868-ci ildə Yelizavetpol quberniyasının təşkili ilə qəza bu quberniyanın tərkibinə qatıldı. Quberniya torpaqlarının digər hissəsindən isə yeni yaradıldı və bu inzibati bölgü demək olar ki, heç bir dəyişiklik olmadan 1921-ci ilə kimi davam etdi (Köçerili, 1998: 163; Hüseynov, 2012: 58-59).

Azərbaycan torpaqlarında xanlıqlar dövründən başlamış siyasi, iqtisadi və mədəni-mənəvi pərakəndəlik Rusiya ilhaqından sonra da davam etmişdir. Tarixçi K.Şükürovun da qeyd etdiyi kimi, *"1801-1828-ci illərdə ilhaq olunan Şimali Azərbaycan torpaqları Rusiyanın tərkibində vahid inzibati bölgə kimi saxlanılmadı, işğal dövründə və işğalın başa çatmasından*

*1870-ci illərədək mürəkkəb və ziddiyyətli inzibati-siyasi bölgülərə məruz qaldı. Şimali Azərbaycan əhalisi də müxtəlif inzibati vahidlər arasında parçalandı"*(Şükürov, 2004: 109). Məqsədyönlü şəkildə həyata keçirilən bu siyasətlə rus çarizmi regionda azərbaycanlıların mövqeyini daha çox zəiflətməyə, milli-dini konsolidasiya proseslərini ləngitməyə və yeri gəldikcə bundan özünün imperiya maraqları naminə istifadə etməyə çalışırdı.

## 1. Mənbələr Qarabağın Etnodemoqrafik Strukturu Haqqında

Qarabağın əhali sayı, etnik və konfessional tərkibinə gəlincə, deməliyik ki, XIX əsrə qədərki mənbələrdə bu barədə dəqiq statistika yoxdur. Lakin bəzi sənədlərdə əksini tapmış ümumi xarakterli məlumatlara istinadən müəyyən nəticələrə gəlmək mümkündür. Məsələn, "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndəki məlumatların təhlilindən aydın olur ki, 1727-ci ildə Qarabağda bir şəhər, 431 məskun kənd və 357 qeyri-məskun yaşayış məntəqəsi (ümumilikdə 788 kənd) qeydə alınmışdır. Əhali sayı 10. 218 ailədən və ya 51. 090 nəfər ibarət olmşdur ki, onlar da etnik-dini baxımından "müsəlman" (türklər və kürdlər) və "qeyri müsəlman"lara (alban mənşəli ermənilər) bölünmüşdülər.

"Dəftər"də Gəncə-Qarabağ əyalətinin Şəmkürbasan və Böyük Kürəkbasan nahiyələrindəki cəmi 25 kənd "erməni kəndi" kimi göstərilmişdir (Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, 2000: 79-123; 149-155). Əyalətin adı dəftərə düşmüş əhalisinin 11.618 nəfəri müsəlman (bunlardan 11.068 nəfəri türk, 750 nəfəri kürd olmuşdur), 7. 577 nəfəri isə qeyri-müsəlman (erməni) kimi qeydə alınmışdır (Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, 2000: 13). 1747-ci ildə Qarabağ xanlığı yaradılarkən də diyarın əhalisinin böyük əksəriyyətini türk-müsəlmanlar təşkil etmiş və bu üstünlük XIX əsrin əvvəllərində davam etmişdir. Belə ki, həmin dövrdə xanlıq ərazisində 629 kənd və oymaqda yaşayan 17. 031 ailədən 12. 182-si azərbaycanlı, 4. 621-i xristian, 228-i isə kürd ailələri kimi qeydə alınmışdır. Buraya Şuşa şəhərində yaşayan 1. 532 ailəni (969 müsəlman, 533 xristian və 30 kürd ailəsi) əlavə etdikdən sonra, Qarabağ xanlığında yaşayan 18. 563 ailənin 13. 151-nin (yaxud 79,85 %) müsəlman, 5. 154-nün (yaxud 27,20 %) xristian və 258-nin (yaxud 1,39%) isə kürd mənşəli ailələr olduğu aydınlaşır (Hacıyeva, 2007: 196).

Mövcud vəziyyət 1811-ci il iyulun 19-da daxili işlər naziri Osip Kozodavlevin adına göndərilən "Gürcüstan və Qafqazın bəzi digər bölgələrinin təsviri" adlı xidməti məktubda da əksini tapmışdır. Məktubda deyilir: *"...Qarabağ ərazisində məskun olan 12 minə qədər ailənin 2500-ə qədəri erməni, qalanları isə tatar və ya müsəlman ailələridir"*( Присоединение Восточной Армении к России. Сборник документов , 1972: 562).

1823-cü ildə rus çinovnikləri tərəfindən tərtib edilmiş "Qarabağ əyalətinin təsviri"ndə Qarabağda qeydə alınan 614 kənddən 450-si "tatar" (azərbaycanlı-T.Ş.), 150-si erməni kəndi kimi göstərilmişdir. Həmin kəndlərdə yaşayan 20.095 ailənin 15.729-u (78.3 %) "tatar" (azərbaycanlı – T.Ş.), 4.366-ı (21.7 %) isə erməni ailələri kimi qeydə alınmışdır (Описание Карабагской провинции, составленное в 1823 году, 1866). Bu cür məlumatlara digər mənbələrdə də rast gəlmək mümkündür.

Şübhəsiz ki, mövcud etnodemoqrafik situasiya xristianlaşdırma və ruslaşdırma siyasəti həyata keçirməyi planlaşdıran Rusiya imperiyasının maraqlarına uyğun deyildi. Buna görə də həmin situasiyanı dəyişmək çarizmin əyalətdəki hərbi-siyasi rəhbərliyinin qarşısına əsas vəzifə kimi qoyulmuşdu. Bu baxımdan ermənilər ən "uyğun" etnos hesab edilirdi. Odur ki, hələ birinci Rusiya - Qacarlar (1804-1813-cü illər) müharibəsinin gedişində bu ölkədən ermənilərin köçürülməsinə hazırlıq işlərinə başlanılmışdı. Köçürmələri təşkil etmək, kütləvi və mütəşəkkil şəkildə həyata keçirmək üçün xüsusi komitə yaradılmış və onlar üçün çox əlverişli imtiyazlar müəyyənləşdirilmişdi. Həmin imtiyazlarla köçkünlərin nəqliyyat, pul vəsaiti, yol boyu mühafizənin təşkili, yeni yerlərində torpaqla təmin edilməsi, həmçinin müxtəlif vergi və ödənişlərdən azad edilməsi nəzərdə tutulurdu. Bu məsələdə rusiyalı səfir, diplomat və şair Aleksandr Qriboyedov, erməni əsilli rus generalı X.Y.Lazarev və erməni qriqoryan kilsəsinin əsas mərkəzi olan Eçmiədzin xüsusi fəallıq göstərirdi. 1828-ci ldə Rusiya ilə Qacarlar arasında imzalanmış Türkmənçay müqaviləsinə ermənilərin Azərbaycanın şimal torpaqlarına maneəsiz köçürülməsi ilə bağlı xüsusi maddənin (15-ci maddə) salınması da məhz A.Qriboyedovun "xidməti" idi.

Əsas etibarilə Naxçıvan və İrəvan xanlıqlarının ərazisində məskunlaşdırılması planlaşdırılan ermənilər, rus generalının tapşırığına əsasən kompakt şəkildə bütöv kəndlərə yerləşməli və müsəlman əhaliyə qarışmamalı idilər. Çünki rus çarizmi ilk növbədə bu coğrafiyada xristian əhalini mümkün qədər artırmağı təklif edirdi. Lakin İrəvan və Naxçıvan bütün miqrantları qəbul edə bilmədiyindən, onları "hər şeylə təmin oluna biləcəkləri" Qarabağa getməyə təşviq edirdilər. Beləliklə, ilkin mərhələdə xeyli sayda erməni köçkünü, özü də onların ən yoxsulları Qarabağa yerləşdirildi (Глинка, 1990, 127). Prosesi təsvir edən rus tarixçisi S.N.Qlinka yazırdı:

*"... Yeni işğal olunmuş bölgələrə gözlənilməz insan axını yerli sakinləri çörəksiz qoydu. Bu zaman X.Y.Lazarev (erməni əsilli general) Naxçıvan və İrəvan xanlıqlarının əvəzinə köçkünlərin yolunu Qarabağ xanlığına yönəltmək əmri aldı... Eyni zamanda, X.Y.Lazarev yeni yaradılmış regional erməni hökumətinə*

*köçkünlərin lazımi yerlərdə məskunlaşdırılmasını sürətləndirmək, onlara lazımi köməklik göstərmək əmrini verdi. Naxçıvan xanlığında kifayət qədər dövlət torpaqları olmadığından o, köçkün ermənilərin əksəriyyətini pulla təmin edərək İrəvan xanlığına və Qarabağ xanlığına getməyə razı saldı. ...Üç ay yarım ərzində 8000-dən çox ailə Arazı keçdi. Onlara kömək məqsədilə 14 min çervon və 400 rubl gümüş pul ayrıldı. Bu cür məhdud xərclərlə Lazarev Rusiyaya 40.000-ə yaxın yeni çalışqan və əməksevər təəbə (söhbət ermənilərdən gedir – T.Ş.) əlavə etdi"*( Глинка, 1990: 90-92).

1825-1826-ci illərdə daha 18 min erməni ailəsi Qarabağ və Zəngəzura köçürüldü və burada onlar üçün yeni kəndlər - Marağalı, Canyataq, Yuxar Çaylı, Aşağı Çaylı və s. yaradıldı. Rus etnoqrafı və tarixçisi S.P.Zelinskinin məlumatına görə, Zəngəzurun üç kəndinin əhalisi istisna olmaqla, bütün erməni kəndlərinin sakinləri İranın (Qacarlar) sərhəd vilayətlərindən - Qaradağ, Gərməli, Xoy və Salmasdan gələn köçkünlərdən ibarətdir (Зелинский, 1886: 10).

Erməni əsilli polkovnik X.Y.Lazarev 1828-ci il martın 30-da köç məsələsində tərəddüd edən İran ermənilərinə müraciət edərək demişdi: *"...Rusiyanın böyük monarxı köçmək istəyənlərə onun dövlətində - İrəvanda, Naxçıvanda və Qarabağda etibarlı, sakit və xoşbəxt həyat, bol taxıllı, əkinə yararlı münbit sığınacaq vəd edir. Siz orada altı il ərzində bütün vergilərdən azad olunacaqsınız və sizə hər cür yardım ediləcəkdir..."*( Глинка, 1990: 107-111; Дубровин, 1871: 405).

Bu fakt erməni müəllifləri tərəfindən də etiraf edilmişdir. Nəsələn, İ.Qazaryan adlı tarixçi qeyd edir ki,

*"...Qeyri-məskun torpaqların çoxluğuna baxmayaraq, köçkünlər yerli sakinlərin tərk etdiyi kəndlərdə yerləşməyə can atırdılar. Çünki burada həm məhsuldar və suvarılan torpaq sahələri, həm də hazır yaşayış evləri var idi. Doğrudur, yerli əhali bu kəndləri həmişəlik tərk etməmişdi. Müharibə fəlakətlərindən (1826-1828-ci illər Rus-Qacarlar müharibəsi) dağlara qaçmış və sonradan qayıdan sakinlər evlərini zəbt edilmiş gördükdə yeni sahiblərlə mübahisəyə girir və bəzən də qalib gəlirdilər. Lakin əksər hallarda, geri çəkilmək məcburiyyətində qalır, ya daha az əlverişli ərazilərə köçür, ya da dağlara gedərək özləri üçün yeni qəsəbələr salır və həmişəlik orada məskunlaşırdılar"* (Газарян, *1957: 69).*

Bütün bunların nəticəsi olaraq qısa zaman kəsiyində Azərbaycanın şimal torpaqlarındakı erməni əhalinin sayı kəskin şəkildə artdı və 1823-1832-ci illəri əhatə edən 10 il ərzində 6.491 ailəyə çatdı. Əvəzində isə türk-müsəlman ailərinin sayı azalaraq, 14.241-dən

13.965-ə endi (Обозрение российских владений за Кавказом , 1836: 267). Erməni tarixçisi A.İsaakyanın yazdığına görə, *"1828-1829-cu illər erməni ailələrinin İrandan İrəvan, Naxçıvan, Qarabağ bölgələrinə, Şirak ovalığına, Sevan gölü hövzəsinə kütləvi şəkildə köçürülməsi ilə yadda qaldı. Zaman keçdikcə onların sayı artdı və 8 min ailəni keçərək xeyli böyüdülər"*( Исаакян :150).

Regiondakı etnodemoqrafik proseslərin izlənilməsi və erməni köçürmələri ilə bağlı rus tədqiqatçısı N.Şavrovun məlumatları da diqqəti cəlb edir. O, yazır:

> *"...1826-1828-ci illər müharibəsinin başa çatmasından sonrakı ilk iki il ərzində (1828-1830-cu illər) biz 40 min İran və 84 min türk ermənisini Zaqafqaziyada yerləşdirdik, onları erməni əhalisinin az olduğu (!) Yelisavetpol və İrəvan quberniyalarında ən yaxşı dövlət torpaqlarında - Yelizavetpol quberniyasının dağlıq hissəsi (Yuxarı Qarabağ və ya Dağlıq Qarabağ) və Göyçə gölünün sahillərində yerləşdirdik. Nəzərə almaq lazımdır ki, rəsmi köçürülən 124.000 erməni ilə bərabər, qeyri-rəsmi qaydada çox sayda ermənilər də buraya yerləşdilər ki, nəticədə köçürülənlərin ümumi sayı 200.000 nəfəri ötdü"*( Шавров, 1990: 63).

1832-ci ildə keçirilən kameral hesablamalara görə, Şuşada və Qarabağın 741 kənd və obasında 20.546 ailə qeydiyyata alınmışdır ki, bundan da 13.965 ailə müsəlman, 6.491 ailə erməni, az sayda ailə isə qaraçı ailələri kimi qeydə alınmışdır (Обозрение российских владений за Кавказом , 1836: 267).

Qarbağın baş şəhəri olan Şuşaya gəlincə, 1823-cü ildə burada yaşayan 1.532 ailədən 1.111-nin müsəlman (72,5%), 421 ailənin (27,5%) erməni ailəsi olduğu halda, 1832-ci ildə köçkün erməni axını ilə əlaqədar olaraq burada onların xüsusi çəkisi artaraq 44,9%-ə çatmışdı (Köçərili, 1998:100).

1836-cı ildə Alban Xristian Patriarxlığının ləğv edilməsi və onun əmlakının erməni kilsəsinə verilməsi ilə Qarabağ regionunun (keçmiş Qafqaz Albaniyasının ərazisi) yerli xristian əhalisinin (Qafqaz albanlarının nəsilləri) qriqorianlaşdırılmasına (erməniləşdirilməsinə) başlanıldı. Artıq bundan sonra xristian albanlar da erməni kimi qeydə alındılar. Bu fakt erməni tarixçisi B.İşxanyanın 1916-cı ildə Petroqradda nəşr etdirdiyi kitabında da əksini tapmışdır: *"Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi yerlilər - qədim albanların nəslindən olanlar, bir hissəsi də Türkiyə və İrandan (Qacarlardan) gələn köçkünlərdir, hansı ki, Azərbaycan torpaqlarında sığınacaq tapmışlar*"(Ишханян, 1916:18).

Lakin bu etnodemoqrafik təlatümlərə baxmayaraq, XIX əsrin ortalarında da Qarabağda türk-müsəlman əhalinin say üstünlüyü davam edirdi. 1889-cu ilin statistik məlumatlarına görə, keçmiş Qarabağ xanlığının ərazisindəki dörd qəzanın yalnız birində - Şuşa qəzasında ermənilər çoxluq təşkil etmişlər, baxmayaraq ki, onların əhalinin tərkibindəki payı 1886-cı ildəki 58%-dən 54,5%-ə qədər azalmışdı. Zəngəzurda isə sakinlərin təxminən yarısı (49,4%) ermənilərdən ibarət idi. Ötən dövr ərzində onlar yalnız Qarabağın əsas şəhəri Şuşada əhəmiyyətli üstünlük qazanmışdılar (60 %). Türk-müsəlman əhali isə iki qəzada - Cəbrayıl (75,5%) və Cavanşir qəzalarında (70%) mütləq çoxluğa sahib idilər. Bütövlükdə Qarabağ üzrə türk-müsəlman əhalinin ümumi sayı 54,4 % təşkil edirdi (Кавказский календарь на 1892 год, 1891: 24-25).

F.A.Brokqauz və İ.A.Yefronun ensiklopediyasında isə qeyd olunur ki, 1886-cı ildə Qarabağın da daxil olduğu "Yelizavetpol quberniyasının (Gəncə-T.Ş.) 728.943 nəfərlik əhalisi 1.521 kənd və 3 şəhərdə məskunlaşmışdır. Əhalinin böyük əksəriyyəti iki millətə mənsubdur: Azərbaycan tatarları (Azərbaycan türkləri - red.) – 55, 96% və ermənilər (35,43 %).

1891-ci il yanvarın 1-nə aid statistik məlumatlarda Qarabağ torpaqlarının da daxil olduğu Yelizavetpol (Gəncə-T.Ş.) quberniyasında 774.963 nəfər əhali qeydə alınmışdır (o cümlədən, 439.287 kişi və 335.676 qadın). Quberniya ərazisində 10 pravoslav kilsəsi, 1 çasovnı, 1 monastır, 36 raskolnik dua evi, 429 erməni-qriqorian kilsəsi və monastır, 5 protestant kilsəsi, 2 sinaqoq, 511 sünni və 165 şiə məscidi vardı (cəmi – 676 məscid). Beləliklə, türk-müsəlman əhaliyə məxsus ibadətgahların sayının çoxluğu faktı da regionda məhz onların dominant rola malik olduğunu təsdiqləyir.

XIX əsrin sonunda Cənubi Qafqaz yeni erməni köç dalğasına məruz qaldı. N.Şavrovun sözlərinə görə, *"Türkiyədə erməni iğtişaşları ilə əlaqədar 1893-1894-cü illərdə erməni köçürmələri yeni və daha geniş miqyas aldı. Yeni təyin olunmuş baş komandan knyaz Q.S.Qolitsyn vilayətə gələndə - 1897-ci ildə yeni gələn ermənilər artıq 1894-cü ildə olduğu kimi 10.000 (1893-1894-cü illər arasında gələnlərin sayı nəzərdə tutulur) deyil, 90.000-ə yaxın idi"(* Энциклопедический словарь Брокгауза и Ефрона, 1894: 63-64).

Elə həmin ildə Rusiya İmperiyasında bütün əsas inzibati vahidlər - kəndlər, şəhərlər, mahallar, rayonlar və əyalətlər üzrə keçirilən ilk ümumi əhali siyahıyaalınmasına görə, Zaqafqaziyada məskunlaşan ermənilərin sayı artıq 1.100.138 nəfər, bütövlükdə Qafqaz üzrə isə 1.124.948 nəfər təşkil etmişdir (Кавказский календарь на 1903 г., 1902: 250-253). Siyahıyaalınma sənədlərinə görə, Yelizavetpol (Gəncə) quberniyasının qəzaları üzrə etnoqdemoqrafik vəziyyət belə olmuşdur: Şuşa qəzasında yaşayan 138.771 nəfər əhalinin 62.868 nəfəri (45,3%) türk-müsəlman, 73.953 nəfəri (53,1%) erməni; Zəngəzur qəzasının

137.871 sakinindən - 71.216 (52.3%) türk-müsəlman, 63.622 (46.4%) erməni; Cavanşir qəzasının 72.719 sakinindən 52.044 (71.3%) türk-müsəlman və 19.551 (26.7%) , Cəbrayıl qəzasının isə 66.360 sakininin 49.189 nəfəri (74,5%) türk-müsəlman, 15.746 nəfəri (23,8%) isə erməni millətinin nümayəndələri olmuşlar. Ümumilikdə, Qarabağ vilayətinin tərkibində olduğu Yelizavetpol (Gəncə) quberniyası üzrə 878.415 nəfər əhalinin 534.086 nəfəri (60.8%) türk-müsəlman, 229.188 nəfərini (26.1%) isə ermənilər təşkil etmişdir (Мустафазаде, 2006, с.188-189).

Göründüyü kimi, kütləvi xristian köçürmələrinə, siyahıyaalınmaların əksər hallarda imperiyanın siyasi məqsədlərinə uyğun şəkildə aparılmasına, təhrif edilməsinə və saxtaşdırılmasına rəğmən, regionda türk-müsəlman əhalinin say və keyfiyyət üstünlüyünü yenə də azaltmaq mümkün olmamışdır. Lakin burada bir vacib məqamı da qeyd etmək lazımdır ki, ermənilərin Azərbaycan torpaqlarında məskunlaşdırılması, onların məqsədyönlü şəkildə yerli əhaliyə məxsus kənd və qəsəbələrə yerləşdirilməsi bir qayda olaraq həmin əhalinin öz dədə-baba torpaqlarını tərk etməsinə səbəb olurdu ki, bu da vilayətin demoqrafik strukturunda əksini tapırdı. Xüsusilə, Rusiya-Qacarlar müharibələri dövründə (1804-1813-cü və 1826-1828-ci illər) türk-müsəlman əhalinin müəyyən hissəsi ya məhv edilmiş, ya da ata-baba torpaqlarını tərk edərək qonşu Qacarlar və Osmanlı dövlətlərinin ərazilərinə keçməyə vadar olmuşdular (Hüseynov, 2012: 58). Bəzi məlumatlara görə, hətta Qarabağ əhalisinin az qala yarıya qədəri miqrasiya etməyə məcbur edilmişdi. Məsələn, 1816-cı ildə İbrahimxəlil xanın oğlu Əbülfət ağa 4 min ailə ilə bərabər Qarabağı tərk etmişdi (Гаджиева, 2005:112). 200 tüstülük Tuğ kəndinin bütün əhalisi Arazın o tayına qaçmışdı. 1822-ci ildə Qarabağlı Mehdiqulu xan bir sıra kəndərin əhalisi ilə bərabər Qarabağı tərk etməyə məcbur olmuşdu. Cəfərqulu ağa, Hüseyn bəy və Şıxəli ağa başda olmaqla 139 cəbrayıllı ailə də Arazın o tayına köçmüşdü (Вердиева 2016: 46-47). Bu cür misalların sayını istənilən qədər artırmaq olar.

Məlum olduğu kimi, XIX əsrin 30-40-cı illərindən başlayaraq ermənilərlə yanaşı, Şimali Azərbaycana çox sayda rus təriqətçiləri də yerləşdirilmiş və onlar üçün müxtəlif əyalətlərdə, o cümlədən Qarabağda bir sıra yeni yaşayış məntəqələri yaradılmışdı. Qızıl Qışlaq (1830-cu il), Düdəkçi (1832-ci il), Ələddin (1833-cü il), Qarabulaq (1834-c il), Kiryəki (1833-cü il), Bazarçay (1836-ci il) belə qəsəbələrdən idi (Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (AR DTA), f. 44, siy. 8, d. 218). Onların ümumi sayı barədə dəqiq məlumat olmasa da, 1894-cü ilə aid rəsmi sənədlərdə bütövlükdə Yelizavetpol quberniyasındakı 14 təriqətçi kəndində 10. 404 təriqətçinin yaşadığı bildirilir. ( Центральный Государственный

Исторический Архив Грузии (ЦГИА), ф. 4, оп. 8, д. 218). Həmin kəndlərin də 1-i Şuşa, 5-i Cəbrayıl, 1-i isə Zəngəzur qəzalarında qeydə alınmışdır (Вердиева, 2016: 265).

## 2. Erməni "Tarixçi"lərinin Qarabağ Aldatmacaları

Son zamanlar bir sıra erməni və rus tarixçiləri, eləcə də bəzi siyasi dairələr heç bir fakt və dəlil göstərmədən Qarabağın Rusiya imperiyasının təkibinə "erməni vilayəti" kimi daxil edildiyi, hətta XVIII əsrdə ermənilərin Qarabağ əhalisinin hardasa 97 faizini (?) təşkil etməsi haqqında cəfəng fikirlər irəli sürürlər (Захаров В.А., С.Т.Саркисян С.Т.,2008:230). Bu cür fikirlərə münasibət bildirən tarixçi Cəmil Həsənli yazır ki, *"...Əgər doğrudan da belə idisə, o halda nəyə görə XVIII əsrin ortalarında Qarabağda erməni dövləti deyil, başda tanınmış türk Cavanşir tayfasının nümayəndələrinin olduğu Qarabağ xanlığı yarandı? Axı tarixdə elə bir hal məlum deyil ki, əhalinin üç faizi qalan doxsan yeddi faiz üzərində öz dövlətçiliyini qursun"*( Гасанлы, 2010: 4).

Bundan əlavə, o dövrün beynəlxalq hüquqi sənədlərində, o cümlədən, Kürəkçay (1805-ci il), Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələrinin də heç birində hansısa "erməni torpaqları"ndan və ya erməni dövlət qurumundan bəhs edilmir. Həmin sənədlərdə yalnız Rusiyanın protektoratlığını qəbul edən və ya Rusiyaya ilhaq olunan Azərbaycan xanlıqlarından söhbət gedir (Гасанлы , 2010:8). Həmin xanlıqların biri və birincisi də məhz Qarabağ xanlığı olmuşdur.

O da maraqlıdır ki, bu cür iddialar hədəfə çatmayanda, erməni "elm adamları" Azərbaycan xanlıqlarını "iranlaşdırmağa" və ya "farslaşdırmağa cəhd edirlər. Məsələn, A.J.Ohanesyan adlı bir erməni müəllifi yazır: "*...Göründüyü kimi, məhz bu yolla bir çox fars (və ya İran) xanlıqları (!?), o cümlədən, Qarabağ, Şəki, Şirvan, Bakı, Quba və s. rus təbəəliyini qəbul etdilər"* (Оганесян, 2008: 213). Halbuki, yuxarıda şərh edilən tarixi faktlar və sənədlər bu cür fikirlərin heç bir elmi əsasının olmadığını aydın şəkildə sübut edir. Həmin fikirlərin ortaya atılması isə yalnız və yalnız Cənubi Qafqazın, o cümlədən, Qarabağın etnik xəritəsində "erməni faktoru"nun meydana gəlməsinin çar Rusiyasının işğalçılıq və köçürmə siyasətinin yekunu olması həqiqətini ört-basdır etməyə, ermənilərə bir növ "aborigen xalq" donunu geyindirərək, ondan siyasi manipulyasiyalarda istifadə məqsədinə xidmət edir. Təsadüfi deyil ki, ermənilər də Rusiyanın bu "himayədarlıq missiyası"nı daima hörmət və minnətdarlıqla anır, onların Cənubi Qafqazda məskunlaşdırılmasını erməni xalqının həyatında "dönüş nöqtəsi", "erməni dövlətçiliyinin bərpası", "erməni xalqının sonrakı inkişafının gedişatını müəyyən

edən", nəhayət ki, bütün dünya boyu səpələnən ermənilərin "etnik və demoqrafik konsolidasiyasına" şərait yaradan bir tarixi hadisə kimi qiymətləndirirlər.

**Sonuç**

Beləliklə, 1826-1828-ci il Rusiya-İran müharibəsi ərəfəsində Şimali Azərbaycan əhalisinin cəmi 9,7 faizini təşkil edən ermənilər, XIX əsrin ortalarında 21,2 faiz, 1897-ci ildə 29,8 faiz, XX əsrin başlarında isə artıq 32 faiz təşkil etdilər. Bu isə təxminən 100 il ərzində bölgədəki ermənilərin sayının 23 faiz artması demək idi (Вердиева 2016: 261). Bu etnodemoqrafik "sıçrayışın" yalnız təbii artımın deyil, böyük ölçüdə köçürmələrin hesabına baş verdiyi isə yuxarıda sadalanan faktlarla, o cümlədən N.N.Şavrovun aşağıdakı fikirləri ilə tam olaraq təsdiqlənir: *"...Onlar (köçkün ermənilər – T.Ş.) burada güclü sosial təbəqə yaradaraq, yalançı şəhadətlə geniş dövlət torpaqlarına sahib oldular... Hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənінin 1 milyondan çoxu bölgənin yerli sakinlərinin sırasına aid deyil və bizim tərəfimizdən məskunlaşdırılmışdır"*(Шавров, 1990:60-61, 64).

Çar Rusiyasının təxminən bir əsr boyu həyata keçirdiyi köçürmə, ruslaşdırma və xristianlaşdırma siyasəti isə Cənubi Qafqazın, o cümlədən Azərbaycanın etnodemoqrafik strukturuna ciddi şəkildə təsir göstərsə də, imperiyalistlər üçün arzu olunan nəticələrə gətirib çıxarmadı. Ciddi siyasi təqiblərə, təzyiqlərə, fiziki və mənəvi cəza tədbirlərinə baxmayaraq, azərbaycanlılar çoxsaylı yabançı dinə və dilə mənsub etnoslar arasında öz varlığını, əhəmiyyətli kəmiyyət və keyfiyyət üstünlüyünü qoruyub saxladı və daha da möhkəmləndirdi.

**Kaynakça**

Abdullayev, M. (2005). Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı: Adiloğlu.

Колониальная политика российского царизма в Азербайджане в 20-60 гг. XIX в. (1936). часть 1. Феодальные отнощения и колониальный режим 1827-1843 гг. М-Л.: Издать. Акад. Наук СССР.

Qarabağ: Suallar və Faktlar. (2005). Bakı: Qismət, 2005.

Mahmudov, Y., Şükürov K. (2005). Qarabağ: Real tarix, faktlar və sənədlər. Bakı: Təhsil.

Деконский А.Т. (1886). Экономический быт государственных крестьян Шушинского и Джабраильского уездов Елизаветпольской губернии //Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Тифлис:Типография. Меликова.

Qarabaği, Mirzə Camal Cavanşir. (1959). Qarabağ tarixi. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.

Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. (2000). Bakı: "Şuşa" nəşriyyatı.

Абасов, Ф.М. (2007). Гарабагское ханство. Баку: Тахсил.

Hüseynov, Y. (2012). Qarabağ tarixi mənbələrdə. Bakı: "Şuşa" nəşriyyatı.

Зелинский, С.П. (1886). Экономический быт государственных крестьян Зангезурского уезда Елизаветпольской губернии //Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Тифлис, Тип. Меликова и А. А. Михельсона, т. 4, ч. 1.

Köçərili, T. (1998). Qarabağ: yalan və həqiqətlər. Bakı: Azərb. EA İctimai-siyasi Tədqiqatlar və İnformasiya institutu.

Şükürov, K. (2004). Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları. Bakı: Elm.

Hacıyeva, Z. (2007). Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı: Təhsil.

Присоединение Восточной Армении к России. (1972). Сборник документов. Т. I (1801-1813). Ереван: Изд. Акад. наук Арм. ССР.

Описание Карабагской провинции, составленное в 1823 году. (1886). по распоряжению Главноуправляющего в Грузии Ермолова действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис.

Глинка, С. Н. (1990). Описание переселения армян Аддербиджанских в пределы России. Переизд., Баку.

Дубровин, Н. (1871). История войны и владычества русских на Кавказе. Том I, кн. 2, СПб., Тип. Департамента уделов.

Газарян, И. (1957). Переселение армян из Персии в Армянскую область в 1828 г. // Известия Академии наук Армянской ССР, №7

Присоединение Восточной Армении к России. (1978). Сборник документов. Ереван: Академия наук Армянской ССР.

Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом, финансовом отношениях. (1836). Ч. 3, СПб., Тип. Департамента внеш.торговли.

Исаакян, А.А. С.Грибоедов и Армения. URL: http://hpj.asj-oa.am/3525/1/2005-1

Шавров, Н.Н. (1990). Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Переизд., Баку.

Köçərli, T. (1998). Qarabağ: yalan və həqiqət. Bakı: Əbilov, Zeynalov və oğulları.

Ишханян, Б. (1916). Народности Кавказа. Состав населения, профессиональная группировка и общественное расслоение кавказских народностей (Статистико-эконоомическое исследование).

Энциклопедический словарь Брокгауза и Ефрона (1894). (под ред. проф. И. Е. Андреевского), в 86 т, т. XI A (22), Санкт-Петербург, Типолитография И.А.Ефрон, СПб.

Кавказский календарь на 1872 г. (1871). Издании отъ канцелярии Кавказского намиъстника. Приложение «Данные о пространстве и населении Закавказья» Тифлисъ.

Мустафазаде, Р. (2006). Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М.

Гаджиева, З. А.(2005). Об административном устройстве и религиозно-этническом составе Гарабагского ханства //Гарабаг: Кюрекчайский договор - 200. Баку: Тахсил

Вердиева, Х.Ю. (2016). Переселенческая политика Российской им-перии в Северном Азербайджане (XIX-начале XX вв.). Баку: Ecoprint.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (AR DTA), f. 44, siy. 8, d. 218

Центральный Государственный Исторический Архив Грузии (ЦГИА), ф. 4, оп. 8, д. 218

Захаров, В.А. (2008). Саркисян С.Т. Азербайджано-карабахский конфликт: истоки и современность // Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха. Сборник статей. Москва.

Гасанлы, Дж. (2010). Азербайджанская дипломатия и Карабах: От Кюрекчайского договора до большевистской оккупации. İrs (Nasledie), № 5 (47), ss. 4-11.

Оганесян, А.Ж. (2009). Карабах в русских источниках (конец XVIII – начало XIX вв.) //Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха (Сборник статей). Москва: Русская панорама. с. 210-219